# BEYLƏQANDA MELİORASİYA İŞLƏRİNƏ DİQQƏT



*Beyləqanlılar həmişə olduğu kimi, 2015-ci ilin ilk günlərində də yeni qüvvə və ruh yüksəkliyi ilə yaşayır və işləyirlər. Burada kənd təsərrüfatını daha da inkişaf etdirmək, məhsul istehsalını artırmaq, ərzaq təhlükəsizliyini təmin etmək sahəsində layihələr yüksək səviyyədə həyata keçirilir. Beyləqan Meliorasiya İdarəsinin kollektivi də bu sahədə öz işlərini yeni tələblər səviyyəsində qurmağa çalışır. Müəssisənin rəhbəri* ***Nadir Əliyevdən*** *kollektivin həyata keçirdiyi tədbirlər haqqında məlumat verməyi xahiş etdik. O dedi:*

- Regionların sosial-iqtisadi inkişafına, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına, habelə meliorasiya və irriqasiya, suvarma tədbirlərinin miqyasının genişləndirilməsinə dair Dövlət proqramları aqrar bölmənin dinamik inkişafını təmin etmək üçün suvarma və meliorasiyanı əsas vəzifələrdən biri kimi qoymuşdur. Həmin proqramların müddəaları ilə bağlı son illərdə rayonumuzda torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, münbitliyin artırılması, şoranlaşmanın qarşısının alınması və təsərrüfatların suvarma suyu ilə təminatının yüksəldilməsi istiqamətində xeyli iş görülmüş, təsirli tədbirlər həyata keçirilmişdir. Ərazilərdə yeni kollektor-drenaj şəbəkələri tikilib istifadəyə verilmiş, mövcud şəbəkələr və suvarma kanalları lildən təmizlənmiş, hidrotexniki qurğular əsaslı təmir olunmuşdur. Yuxarı Mil kanalı ilə Xan qızı kanalları arasındakı ərazidə, Şərq, Türklər, Sarısu ərazilərində kompleks meliorasiya tədbirləri görülmüşdür.

Öyrəndik ki, meliorasiya idarəsi 2007-ci ildə yaradılmışdır. Ötən illər 100 nəfərlik melioratorlar kollektivi üçün uğurlu olmuşdur. İdarə əsasən torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, Beyləqan və Füzuli rayonlarının ərazilərində kollektor və drenaj şəbəkələrinin istismarı, suların toplanılıb Ağgöl istiqamətinə yönəldilməsi ilə məşğuldur. Yeri gəldikcə yerli fermerlərin suya olan ehtiyaclarının ödənilməsinə də kömək göstərilir. Görülən işlər son nəticə etibarilə kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsinə xidmət edir. Bu tədbirlər sayəsində rayonda aqrar bölmə sürətlə inkişaf etmiş, bütün növ məhsul istehsalı əvvəlki ilin müvafiq dövründəkinə nisbətən artmışdır.

İdarənin balansında 1600 kilometrlik kollektor və drenaj şəbəkəsi vardır. Yola saldığımız ildə xidmət etdiyimiz ərazidə xeyli sahə şoranlaşmadan xilas edilmiş, ekskavatorla 1 milyon kubmetr həcmində lildən təmizləmə aparılmış, 100 kubmetr buldozer işi görülmüş, kollektorlarda və 12 kilometrlik sutoplayıcılarda işlər başa çatdırılmışdır. Bundan başqa, 60 körpü keçidi təmir olunmuşdur. Hazırda bütün su xətləri və hidrotexniki qurğular saz və işlək vəziyyətdədir.

Dövlətimizin başçısının meliorasiya və suvarma sahəsinə qayğısı işçilərin ruh yüksəkliyini xeyli artırmış və bu fəallığı hər yerdə, rayonun ən ucqar ərazilərində gecə-gündüz növbədə dayanan suçuların işində müşahidə etmək mümkündür. Onlar suvarma işlərinin genişləndirilməsinin, yeni suvarma şəbəkələrinin yaradılmasının müasir şəraitdə mühüm əhəmiyyət kəsb etdiyini yaxşı dərk edərək, bu sahədə həyata keçirilən tədbirlərdə fəal iştirak edir, şərəfli işimizin qədrini bilir, ümumi iş üçün əllərindən gələni əsirgəmirlər.

Şübhəsizdir ki, bütün bu işləri görmək texniki vasitələr, güclü nasoslar, maşın və mexanizmlər olmadan qeyri-mümkündür. Buna görə də hər şeydən əvvəl maşın-texnika parkının komplektləşdirilməsinə diqqət gücləndirilir. Hazırda idarənin balansında kifayət qədər texniki vasitələr, maşın və mexanizmlər, o cümlədən 11 ekskavator, 6 buldozer, yük maşınları vardır. Bunlar işlərin rəvan getməsi üçün kifayət edir.

Söhbət əsnasında N.Əliyev onu da bildirdi ki, bütün bu işlər heç də asanlıqla həyata keçirilmir, suvarma işləri çox mürəkkəb relyef şəraitində aparılır, yerüstü və yeraltı təbii su ehtiyatları məhduddur. Eyni zamanda meliorasiya texnikası və texnologiyalarının tətbiqində xeyli yeniliklər etmək lazım gəlir. Şoran torpaqlarımız da çoxdur və işçilərimiz problemlərə baxmayaraq, istismar tədbirlərini həyata keçirməkdən ötrü gecə-gündüz səylə çalışır, var qüvvələrini sərf edirlər. Yaxşı başa düşürük ki, görülmüş işlər son hədd deyildir, Prezidentimizin qarşıya qoyduğu məsul vəzifələrin, rayon rəhbərliynin hazırladığı planların yerinə yetirilməsində səylərimizi ardıcıl olaraq davam etdirməliyik.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**